# O, seçdiyi sənətə sidqi ürəklə bağlı idi



***Milli teatr və kino salnaməmizin zənginləşməsində Xalq artisti Lütfi Məmmədbəylinin xüsusi xidmətləri olub. Onun tələbələri, yetirmələri bu gün Azərbaycan teatrının və kinosunun aparıcı simalarıdır. Lütfi müəllimin Xalq Teatrındakı fəaliyyəti, Gənc Tamaşaçılar və Akademik Milli Dram teatrlarında oynadığı rollar, rejissor kimi hazırladığı səhnə əsərləri hər zaman böyük hörmət və ehtiramla xatırlanır.***

Lütfi Məmmədbəylinin müxtəlif teatrlarda yaratdığı obrazlar, quruluş verdiyi tamaşalar, rejissoru olduğu radio və televiziya tamaşaları, müxtəlif filmlərdə oynadığı rollar, çəkdiyi telefilmlər ona geniş tamaşaçı rəğbəti qazandırmışdı.

Lütfi müəllim ciddi düşünən, özünə qarşı çox tələbkar olan bir insan idi. Eyni zamanda, səmimiyyəti, alicənablığı, insanlarla tez ünsiyyətə girməsi ilə fərqlənirdi. Ən başlıcası isə yorulmaq bilməyən fəaliyyəti ilə öz doğma Vətəninə, xalqına məhəbbətlə xidmət edirdi.



L.Məmmədbəyli 1927-ci ilin fevral ayında Ağdaşda anadan olub. Amma əslən şamaxılı idi. 1902-ci ildə Şamaxı zəlzələsindən sonra valideynləri Ağdaşa köçüblər. Ata babası Cahangir bəy Məmmədbəyov Şamaxının sayılıb-seçilən bəylərindən olub. Qəribədir ki, Lütfinin atası Şahbaz bəy komissar olduğu üçün bəylərə qarşı mübarizə aparıb. Atasını erkən vaxtlardan itirən Lütfi ailəsi ilə birgə Bakıya köçüb. Ailəyə kömək məqsədilə 14 yaşı tamam olanda işləməyi qərara alıb və Əmircandakı mədəniyyət evində səhnə fəhləsi olub. Ailədəki çətinliklərə baxmayaraq, L.Məmmədbəyli 1946-cı ildə Bakı Teatr Texnikumunun aktyorluq şöbəsini, 1968-ci ildə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki ADMİU) bitirib.

O, uşaqlıqdan həvəs göstərdiyi səhnə fəaliyyətinə Bakı Mərkəzi Pionerlər Sarayında başlayıb və dram dərnəyinə rəhbərlik edib. 1947-ci ildən bir müddət Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləyib, 1949-cu ildə bu teatr müvəqqəti olaraq bağlandıqdan sonra L.Məmmədbəyli Gənc Tamaşaçılar Teatrının truppasına işə götürülüb. Burada o. A.Qurbanov, Ə.Ağayev, F.Şərifova, Y.Vəliyev, S.Ələsgərov kimi sənətkarlarla birlikdə səhnəyə çıxıb, onlarla tərəf-müqabili olub, tamaşalarda oynayıb.

L.Məmmədbəyli Gənc Tamaşaçılar Teatrında çalışarkən Bakıda o vaxtkı 26-lar Mədəniyyət Sarayında dram dərnəyinə rəhbərlik edirdi. 30 ildən sonra Xalq Teatrı statusu alan bu dərnəkdə o, Azərbaycan aktyorlarının bir neçə nəslini yetişdirmiş, oğlan və qızlara aktyor ustalığını öyrətmişdir. Onun yetirmələri arasında Həsənağa Turabov, Rafiq Əzimov, Siyavuş Aslan, Yaşar Nuri,Tariyel Qasımov, Mərahim Fərzəlibəyov, Məleykə Əsədova kimi Xalq artistləri vardır. Hətta, Xalq Teatrı o qədər məşhur olmuşdur ki, sənətkarın sağlığında bu sənət ocağına “Lütfi Məmmədbəyovun Teatrı” deyirdilər.

Xalq artisti L.Məmmədbəylinin televiziya və kinodakı fəaliyyəti də çox məhsuldar keçib. Televiziyada “Göz həkimi”, “Yağışdan sonra”, “Səninlə sənsiz”, “Vicdanla üz-üzə”, “Yad qızı” kimi tamaşaların rejissoru olub.

L.Məmmədbəylinin kinoda oynadığı iri və kiçik rollar da yaddaqalandır. Onun kinoda ilk rolu 1955-ci ildə çəkilmiş “Bəxtiyar” musiqili kinokomediyasındakı Həbib obrazıdır. Bu personaj özünün fəallığı, diribaşlığı, sözünün kəsərliliyi ilə yadda qalır.

1956-cı ildə istehsal olunmuş məşhur “O olmasın, bu olsun” musiqili kinokomediyasında da L.Məmmədbəyli dost rolunda oynayır. Filmin baş qəhrəmanı Sərvər Gülnazı sevir. Lakin Gülnazın atası Rüstəm bəy qazanc əldə etmək üçün qızını qoca baqqal Məşədi İbada ərə vermək istəyir. Sərvərin dostları, o cümlədən L.Məmmədbəylinin ifa etdiyi gimnazist tədbir töküb Gülnazı Sərvərlə evləndirirlər.

L.Məmmədbəyli “Qızmar Günəş altında” , “Səhər” filmlərində də maraqlı rollar yaradıb. “Səhər” filmində 1905-1907-ci illərdə Bakıda baş verən inqilabi hadisələrdən söhbət açılır. Aktyor bu filmdə siyasi hadisələrin burulğanına düşən, bolşeviklərin yağlı vədlərinə inanıb inqilabçılarla birgə azad və firavan həyat uğrunda mübarizə aparan neftçi fəhlə Aslan rolunda oynayır. Bundan sonra Lütfi müəllim daha iki bədii filmdə çəkilmişdir: “Leyli və Məcnun” və “Sehirli xalat”.

L.Məmmədbəyli respublikamızda televiziya serialları çəkən ilk rejissordur. O, birinci dəfə 1993-cü ildə tanınmış yazıçı-dramaturq Əlibala Hacızadənin “İtkin gəlin” əsəri əsasında on iki seriyalı filmə quruluş vermişdir. Bu film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bundan sonra altı seriyalı “Dodaqdan qəlbə” (1998), yenə də altı seriyalı “Yağışdan sonra” (1998) televiziya seriallarını çəkib, tamaşaçıların ixtiyarına vermişdir. Lütfi müəllim 1953-1976-cı illərdə filmlərin Azərbaycan dilinə dublyaj olunmasında bir aktyor kimi fəal iştirak etmişdir.

Lütfi Məmmədbəyli 2004-cü il fevralın 1-də 77 yaşında insult xəstəliyindən vəfat etmişdir. Var qüvvəsini və bacarığını Azərbaycan incəsənətinin inkişafına sərf edən L.Məmmədbəylinin xidmətləri yüksək qiymətləndirilmiş, “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Onun çoxşaxəli zəngin yaradıcılığı və mənalı həyat yolu gənc nəsil üçün bu gün də örnək olaraq qalır.

***M.MÜKƏRRƏMOĞLU,
“Xalq qəzeti”***